UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.1.192

GÜNEL NƏSİROVA*

# NƏSİMİ POEZİYASI AZƏRBAYCAN BƏSTƏKARLARININ VOKAL YARADICILIĞINDA

*Məqalə Azərbaycanın və Türk dünyasının dahi şairi İmadəddin Nəsiminin poeziyasının Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında təcəssümünə həsr olunmuşdur. Məqalədə Nəsiminin qəzəlləri əsasında yazılmış vokal əsərlərin icmalı verilir. Bir sıra bəstəkarların romansların təhlili verilir. Nəsimi poeziyasına müraciət edən bəstəkarlar qəzəllərin ruhunu dərindən duyaraq, onların musiqi ifadə vasitələri ilə təcəssümünü yaratmışlar. Romanslarda söz və musiqinin vəhdəti məsələləri diqqəti cəlb edir, eyni zamanda melodik xüsusiyyətlər, məqam əsası, metro-ritmik quruluş əsərin məzmununun açılmasında mühüm əhəmiyyətə malikdir. Romansların musiqi dilində muğamdan gələn cəhətlər özünü qabarıq büruzə verir.*
***Açar sözlər.*** Nəsimi, poeziya, vokal musiqi, romans, qəzəl.

## Giriş

XIV əsr Azərbaycan poeziyasının dahi şairi İmadəddin Nəsiminin qəzəlləri hər zaman dillər əzbəri olmuşdur. Onun qəzəlləri orta əsrlər dövründən bu günə kimi muğam ifaçılığında xanəndələr tərəfindən oxunmuşdur. XX əsrdə isə Azərbaycan bəstəkarlarının yaradıcılığına daxil olmuş, müxtəlif janrlı əsərlər meydana gəlmişdir.

## Əsas təhlil

Nəsimi poeziyası bəstəkarları vokal yaradıcılığını zənginləşdirən romans və mahnılar bəstələməyə ruhlandırmışdır. Bunların sırasında Ağabacı Rzayevanın 7 romans silsiləsini, Emin Sabitoğlunun "Hardasan?" romansını qeyd edə bilərik ki, bu vokal əsərlər 1973-cü ildə ən yaxşı romans müsabiqəsində II mükafata layiq görülmüşdülər. Bundan əlavə, Ramiz Mustafayevin "Dedim ey nazlı sənəm", "Didarına müştağam", Cahangir Cahangirovun "Haqq mənəm" romanslarını, Nazim Əliverdibəyovun "Ey gülüm", Süleyman Ələsgərovun "Neylərəm", Səid Rüstəmovun "Neylərəm" romanslarını, Tofiq Quliyevin mahnılar silsiləsini göstərmək olar. Bütün bu əsərlər hər bir bəstəkarın yaradıcılıq üslubuna uyğun olaraq, Nəsimi obrazını musiqidə canlandırmış, onun poeziyasının musiqidə təcəssümünü rəngarəng mmusiqi vasitələrilə canlandırmışdır.

Bu romanslar dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Nizaminin qəzəlləri əsasında yazdığı "Sənsiz" və "Sevgili canan" romansları ilə yaratdığı ənənələrin davamıdır. Klassik şairlərin qəzəlləri əsasında bəstələnmiş bütün romanslarda olduğu kimi, Nəsiminin qəzəlləri əsasında yazılmış romanslarda da dərin mənalı sözün ifadəli oxunması, rəngarəng musiqi çalarlarının açıqlanması, muğamın melodik-intonasiyalarına və ritmik xüsusiyyətlərinə əsaslanmaq, təsnif janrının quruluşundan bəhrələnmək başlıca cəhətlər kimi özünü göstərir.

Musiqişünas-alim "Azərbaycan muğamları" kitabında Ü.Hacıbəylinin romanslarını təsnif janrı ilə müqayisə edərək yazmışdır: "... qəzəlin məzmunundakı hicran, ayrılıq əhvali-ruhiyyəsi musiqi təranələrində daha qabarıq, dolğun şəkildə təcəssüm etdirilsin. Çünki bu məziyyət mətnin ana xəttini, başqa sözlə desək, leytmotivini təşkil edir. Demək olar ki, mətn melodiyanı çox "qol-budaq atmağa" qoymur, onu yığcamlaşdırır", həm də onun sadə variantlığına, çox da geniş olmayan diapazona gətirib çıxarır. "Sənsiz qəzəl-romansından qabaq bu cür inkişaf üsulunu klassik təsniflərdə də görmək mümkündür" [2, s. 316].

Müəllif eyni zamanda təsniflərin melodik, ritmik və məqam xüsusiyyətlərini də qeyd edərək, onların romans-qəzəllər üçün də səciyyəvi olduğunu göstərir. Melodik cəhətdən "klassik təsnif nümunələrinə pillə-pillə hərəkət çox xasdır. Hər musiqi cümləsi özündən əvvəlki musiqi cümləsinə nisbətənyuxarı registrə yönəlir. Yüksələn ardıcıl melodik hərəkət isə onu yüksək zirvəyə - kulminasiyaya gətirib çıxarır" [2, s. 316]. Ritmik baxımdan təsniflərdə "bir ritmik formul sona qədər olduğu kimi təkrarlanır, bəzən variantlığa da uğrayır. Çox zaman ritmlər qəzəl bəhrinin ritminə uyğunlaşdırılır. Çünki... hər bir qəzəlin bəhri melodiyada dəqiq deklamasiya almalıdır, bəhrin ritmi ilə musiqi ritmi vəhdət təşkil etməlidir" [2, s. 316]. Məqam əsasına görə klassik təsniflər bir məqam daxilində qurularaq, məqamın pillələri ətrafında gəzişərək inkişaf etdirilir. Bütün bu cəhətlər klassik

təsniflərə xas olmaqla, eyni zamanda romans-qəzəllərdə də özünü göstərir və romansların təhlili zamanı önə çıxır.

Azərbaycan bəstəkarlarının kamera-vokal yaradıcılığında XIV əsr dahi Azərbaycan filosof-şairi İmadəddin Nəsiminin qəzəllərinə bəstələnən romanslar vokal lirikasının parlaq incilərindəndir. Bu romanslarda söz və melodiyanın gözəl vəhdəti özünü göstərir. Bəstəkarlar milli musiqinin məqam əsasından, melodik-intonasiya, ritmik xüsusiyyətlərindən istifadə edərək, dinamik inkişafla birgə mətndəki lirikanı üzə çıxarır, musiqinin estetik təsirini qüvvətləndirirlər.

Nəsiminin sözlərinə yazılmış romanslar sırasında eyni bir qəzəlin mətnindən istifadəyə rast gəlirik ki, bunlar Süleyman Ələsgərovun, Səid Rüstəmovun, Ədilə Hüseynzadənin "Neylərəm" qəzəli əsasında yazdıqları romanslardır. Bu bəstəkarların hər biri Nəsiminin qəzəlinə öz yaradıcılıq dəst-xəttinə uyğun yanaşaraq, maraqlı musiqi nümunəsi yaratmışlar. Qeyd etmək lazımdır ki, bu bəstəkarların yaradıcılığında klassik şairlərin – Nizaminin, Füzulinin qəzəllərinə yazılmış bir sıra romanslar vardır. Üzeyir Hacıbəylidən sonra romans-qəzəl janrının davamçıları olan bu bəstəkarlar vokal musiqini Nəsiminin qəzəlinə yazılmış əsərləri ilə zənginləşdirmişlər.

Nazim Əliverdibəyovun Nəsiminin sözlərinə bəstələdiyi "Ey gülüm" romansı bəstəkarın vokal yaradıcılığında özünəməxsus yer tutur. Bəstəkarın "Ey gülüm" romansında söz və melodiyanın gözəl vəhdəti özünü göstərir. Rast məqamına əsaslanan romansın mülayim tempdə təqdim edilən melodiyası olduqca həzin xarakterli olub, dinamik inkişafla birgə mətndəki lirikanı üzə çıxarır, musiqinin estetik təsirini qüvvətləndirir.

"Ey gülüm" romansının melodiyası qəzəlin vəzn ölçüsü ilə uyğunluq təşkil edərək, rast məqamının pillələri üzərində hərəkətlə bağlıdır. Xüsusilə "fa" mayəli rast məqamında tonikanın alt kvartasından başlayaraq yüksələn hərəkət poetik mətnin emosional məzmununu dərindən təcəssüm etdirir.

Nümunə 1.




Belə bir quruluş prinsipi Nəsiminin qəzəlinin emosional təsir qüvvəsindən irəli gəlir. Mahnının orta bölməsi rast məqamının kvinta tonuna əsaslanır ki, bu da "Rast" muğamının "Vilayəti" şöbəsinə uyğundur. Bununla bəstəkar musiqinin dinamikasının artmasına nail olur. Mətnin və melodiyanın lirik təbiətinin sintezindən yaranan bu romansın cazibə qüvvəsi olduqca güclüdür. Bu əsər söz və melodiyanın qaynağından yaranan sənət nümunəsidir. Romansın melodikası zənginliyi və ifadəliliyi ilə seçilir. Milli mənbələrlə bağlılıq əsərin zəngin məqam əsasında da parlaq ifadəsini tapmışdır.

N.Əliverdibəyovun "Ey gülüm" romansının məna və məzmununun açılmasında fortepiano müşayiəti mühüm rol oynayır. Burada fortepiano partiyası ikili funksiya daşıyaraq həm vokal partiyaya daxil olur, həm də obrazlı məzmunun önə çıxmasına xidmət edir. Mahnılarda aparıcı rol vokal partiyaya mənsub olsa da, fortepiano partiyası melodiyaya böyük kolorit, rəngarənglik və ifadəlilik verir. Bəstəkar böyük ustalıqla fortepiano partiyasında xalq musiqisinə xas olan improvizasiyalı gedişlərdən, ostinat baslardan istifadə edir. Fortepiano ifa zamanı vokal səslə dialoqa girərək ahəngdar səslənmə yaradır. Bütün bunlar Nazim Əliverdibəyovun "Ey gülüm"

romansının vokal musiqidə özünəməxsus yer tutduğunu bir daha təsdiq edir.

Cahangir Cahangirovun yaradıcılığında romans-qəzəl janrında yazılmış nümunələr sırasında Nəsiminin sözlərinə "Həqq məndədir" romanslarını göstərmək olar. Bu romansın poetik mətninin əsasını əruz vəznində yazılmış qəzəl təşkil etsə də, bəstəkarın təfsirində rəngarəng cəhətlərlə təqdim olunur. Bu baxımdan bəstəkarın yaradıcı təxəyyülü sayəsində qəzəlin mətnindən sərbəst istifadə olunduğunu, melodikanın muğamın qanunauyğunluqlarına əsaslandığını, vokal partiya ilə müşayiətin qarşılıqlı əlaqələndirilməsini qeyd edə bilərik.

C.Cahangirov vokal yaradıcılığında dahi klassikimiz Üzeyir Hacıbəylinin yolunun davamçısı kimi çıxış edir. Onun İmadəddin Nəsiminin sözlərinə bəstələdiyi "Həqq mənəm" qəzəl-romansı bunu inandırıcı surətdə təsdiq edir.

Bəstəkarın bu romansında söz və melodiyanın gözəl vəhdəti özünü göstərir. Romans "si-bemol" mayəli şur məqamına əsaslanır. Reçitativ xarakterli melodiya məqamın dayaq pillələri ətrafında gəzişməklə əmələ gəlir. Melodiya mayənin kvinta tonundan başlayaraq, enən hərəkətlə mayədə tamamlanır.

Nümunə 2




C.Cahangirovun romansının melodik xüsusiyyətlərindən danışarkən, muğamvariliyi xüsusi qeyd etmək lazımdır. Muğamları dərindən bilməsi bəstəkarın muğam üslubunda melodika yaratmaq və onun inkişaf prinsiplərini şərtləndirmişdir. Romansda melodik, məqam-intonasiya, metro-ritmik, forma quruluşu, musiqi ilə sözün qarşılıqlı təsiri musiqi materialının muğama xas olan melodik inkişaf xüsusiyyətləri ilə bağlıdır.

Emin Sabitoğlunun Nəsiminin sözlərinə yazdığı "Ey nigarım hardasan?" və "Eylədi" vokal nümunələri bir sıra cəhətlərinə görə fərqlənir. Bunlardan "Ey nigarım hardasan?" romansı baruton səs və fortepianonun müşayiəti üçün nəzərdə tutulub, "Eylədi" lirik mahnı janrındadır.

"Ey nigarım hardasan?" romansının melodiyası reçitativ-deklamasiyalı xarakter daşıyır. Qəzəlin məzmununu daha dərindən açmaq üçün hər misranın sonunda "hardasan" sözü iki dəfə təkrarlanır. Romansında vokal və fortepiano partiyasının qarşılıqlı əlaqəsi maraqlı səslənmə kəsb edir. Belə ki, fortepiano partiyasında basda və yüksək registrdə geniş diapazonun əhatə olunması ilə baritonun tembri daha da dolğunlaşır. "Eylədi" mahnısı isə qəzəl əsasında yazılsa da burada lirik mahnılara xas olan axıcı, həzin melodiya, oynaq ritm xüsusiyyətləri özünü qabarıq göstərir. Mahnının forması bənd-nəqəratdan ibarətdir ki, bu da mahnı janrına xas olan quruluçdur. Mahnının melodik və ritmik quruluşu qəzəlin xarakterini daha da canlandırır.

Bir sıra bəstəkarların vokal yaradıcılığında Nəsiminin qəzəllərindən istifadə olunan romans

və mahnılarla yanaşı, Nəsimiyə həsr olunmuş digər şairlərin şeirlərinə müraciət də özünü göstərir. Məsələn, Ramiz Mustafayevin Rəfiq Zəkanın sözlərinə "Nəsimi" romansını, Eldar Rüstəmovun eyni şairin sözlərinə "Nəsimi" romansını qeyd etmək olar. Lakin bu romanslarda bəstəkarlar şeirin müxtəlif parçalarından istifadə etmişlər. Əsərlərin musiqi məzmunu və üslub xüsusiyyətləri özünəməxsus cəhətlərə malikdir.

Azərbaycan musiqisində yaranan əsərlərdən Cəlal Abbasovun Nəsiminin iki qəzəli əsasında "Könlüm pərişan" və "Rəvamıdır, həbibi?" səs və simfonik orkestr üçün əsərlərini, İsmayıl Hacıbəyovun Nəsiminin qəzəlləri əsasında böyük ikili xor üçün "Altı xor" silsiləsini, Rüfət Ramazanovun qarışıq a kapella xoru üçün "2 Qəzəl" əsərini, Elnara Dadaşovanın "Nəqşü Xəyal içindəyəm", Azad Zahidin "Mərhəba" romanslarını, Elza Seyidcahanın kamera orkestri üçün "Nəsimi" əsərini qeyd edə bilərik.

Bununla yanaşı, "Nəsimi ili"ndə Azərbaycan Bəstəkarlar İttifaqı və Bakı Musiqi Akademiyası tərəfindən elan olunmuş Nəsiminin sözlərinə romans müsabiqələrində bir sıra gənc bəstəkarların da romansları meydana gəlmişdir. Bunlardan Firudin Allahverdiyevin "Hardasan Yaradan?", İlahə İsrafilovanın "Nəsimi dünyası", Vüqar Məmmədzadənin "Hardasan?" və s. əsərləri qeyd edə bilərik (Təhmirazqızı, 2019: 226).

**Nəticə**

Bu əsərlər janr və forma baxımından müxtəlif olub, bəstəkarların özünəməxsus dəst-xəttini əks etdirir. Eyni zamanda, milli musiqi xüsusiyyətləri ilə klassik və müasir musiqi üslublarının qovuşmasından meydana gələn bu əsərlərdə Nəsimi obrazı, şairin daxili aləmi, dünyagörüşü, fəlsəfi fikirləri öz əksini tapmışdır. Nəsimi poeziyasında və Nəsimi obrazına öz yaradıcılıq prizmasından yanaşan bəstəkarlar fərqli ifaçılıq tərkiblərindən istifadə etmişlər. Bu əsərlər arasında həm vokal əsərlər, həm də instrumental əsərlər bəzən qarışıq tipli, müxtəlif alətlər ansamblı üçün nəzərdə tutulmuş nümunələr vardır.

**ƏDƏBİYYAT**

1. Təhmirazqızı S. Nəsimi və musiqi / S.Təhmirazqızı. – Bakı: Elm və təhsil. – 2019. – 228 s.
2. Zöhrabov R. Azərbaycan muğamları. / R.F.Zöhrabov. – Bakı: Təhsil. – 2013. – 336 s.

***Bakı Musiqi Akademiyasının dissertantı**
***e-mail: gunel.nasirova.1988@gmail.com***

**Gunel Nasirova**

**NASIMI POETRY IN THE VOCAL CREATION OF AZERBAIJAN COMPOSERS**

The article is devoted to the embodiment of the poetry of the brilliant poet of Azerbaijan and the Turkic world Imadeddin Nasimi in the vocal works of Azerbaijani composers. The article presents an overview of vocal works written on the basis of Nasimi's ghazals. The analysis of the romances of a number of composers is given. Turning to Nasimi's poetry, the composers deeply imbued with the spirit of the ghazals, created their embodiment by means of musical expression. In the novels, the issues of the unity of word and music attract attention, but at the same time melodic features, the modal base, and the metrorhythmic structure are important for revealing the content of the work. The features of mugham are clearly manifested in the musical language of romances.

**Keywords.** *Nasimi, poetry, vocal music, romances, ghazals.*

**Гюнель Насирова**

**ПОЭЗИЯ НАСИМИ В ВОКАЛЬНОМ ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ**

Статья посвящена воплощению в вокальном творчестве азербайджанских композиторов поэзии гениального поэта Азербайджана и тюркского мира Имадеддина Насими. В статье представлен обзор вокальных произведений, написанных на основе газелей Насими. Дан анализ романсов ряда композиторов. Обращаясь к поэзии Насими, композиторы глубоко прониклись духом газелей, создали их воплощение средствами музыкальной выразительности. В романсах

обращают на себя внимание вопросы единства слова и музыки, но в то же время мелодические особенности, ладовая основа, метроритмическая структура имеют важное значение для раскрытия содержания произведения. В музыкальном языке романсов ярко проявляются черты мугама.
**Ключевые слова.** *Насими, поэзия, вокальная музыка, романсы, газели.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**